**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin 2018- ci il 16 may tarixli Ü-012 nömrəli əmri ilə təsdiq edilmiş**

## Primatların Azərbaycan Respublikasına idxalına dair

## BAYTARLIQ TƏLƏBLƏRİ

Azərbaycan Respublikasına idxala ixracatçı təsərrüfatda doğulmuş və yetişdirilmiş və ya orada 2 ildən az olmayan müddət ərzində olan və ya vəhşi təbiətdə ovlanılmış, primatlar dəstəsinə aid kliniki cəhətdən sağlam heyvanlara icazə verilir. Heyvanlar ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin daimi nəzarəti altında olan və insanlara ötürülən primatların yoluxucu xəstəliklərindən azad təsərrüfatlardan və inzibati ərazilərdən gəlirlər.

Primatların ixrac edildiyi təsərrüfatlarda və inzibati ərazilərdə heç vaxt Rift vadisi isitməsi, hemorragik qızdırmalar olan Lassa, Ebola və Marburqun epidemik və epizootik təzahürləri, meymunların çiçəyi, insanların taunu qeydə alınmamışdır, ixracatçı ölkənin ərazisində isə göstərilən xəstəliklərin endemik ocaqları mövcud deyil.

Azərbaycan Respublikasının ərazisinə tədarük edilmək üçün seçilmiş heyvanlar ixracatçı ölkənin ərazisində 30 gündən az olmayan müddət ərzində xüsusi hazırlanmış yerlərdə ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin nəzarəti altında karantində saxlanılır. Karantin müddəti ərzində gündəlik mütləq termometriya ilə hər bir heyvanın kliniki müayinəsi aparılır. Bu müddət ərzində dövlət baytarlıq laboratoriyasında BEB tərəfindən tövsiyə edilmiş metodlarla diaqnostik müayinələr aparılır:

- seroloji yolla Lassa, Ebola, Marburq, Denqe hemorragik qızdırmaların və sarı qızdırmanın, A, B, C növ hepatitlərin, quduzluğun, meymunların çiçəyinin, B herpesin, leptespirozun, listeriozun törədicilərinə qarşı anticismlərin mövcudluğuna görə;
- bakterioloji yolla enterobakteriyalar qrupundan olan: eşerixiy, salmonella, şiqel, kampilobakteriya, lepra`nın patoloji törədicilərinin mövcudluğuna görə;
- allerji yolla vərəmə görə.

Göndərilməyə yalnız diaqnostik müayinələr zamanı mənfi nəticələr nümayiş etdirmiş, kliniki cəhətdən sağlam primatlara icazə verilir.

İxraca buraxılmış heyvanlar üzərində göndərilməzdən öncə ektoparazitlərə qarşı profilaktiki işləmələr və dehelmintizasiya aparılır.

Karantin ərzində tələfat halında bütün tələf olmuş heyvanlar patoloji anatomik yolla və laborator metodlarla yoluxucu xəstəliklərə görə mənfi nəticələrlə müayinə olunmalıdırlar.

Nəqliyyat vasitələri ixracatçı-ölkədə qəbul edilmiş qaydalara uyğun işlənilir və hazırlanır.

Hazırki tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi diaqnostik müayinələrin aparıldığı və peyvəndlərin vurulduğu tarixlərin göstərildiyi ixracatçı-ölkənin dövlət baytar həkimi tərəfindən imzalanmış, ona aydın olan dildə və beynəlxalq dildə tərtib olunmuş baytarlıq sertifikatları ilə tam təsdiq olunmalıdır.

Heyvanların Azərbaycan Respublikasına idxalı yalnız idxalçı tərəfindən Azərbaycan Respublikasını Qida Təhlükəsizliyi Agentliyindən icazənin alınmasından sonra mümkündür.

Azərbaycan Respublikasının ərazisinə tədarük edildikdən və dövlət sərhəd baytarlıq nəzarətindən keçdikdən sonra heyvanlar 30 gün müddətinə xüsusi hazırlanmış yerlərdə karantinə yerləşdirilirlər və bu müddət ərzində Qida Təhlükəsizliyi Agentliyinin nəzarəti altında zəruri diaqnostik müayinələr, işləmələr və peyvəndləmələr aparılır.